Avropa İttifaqı ilə Dərin və Hərtərəfli Azad Ticarət Zonası (Deep and Comprehensive Free Trade Area)  Gürcüstanda istehsal olunan məhsul və xidmətlər sektoru üçün Avropa İttifaqı bazarını açan Assosiativlik sazişinin ən mühüm hissəsidir. Azad Ticarət Sazişindən fərqli olaraq, o, həm tarif, həm də qeyri-tarif maneələrinin aradan qaldırılmasını nəzərdə tutur və ticarətlə bağlı məsələlərin geniş spektrini tənzimləyir (məsələn: ərzaq zərərsizliyi, məhsul təhlükəsizliyi, rəqabət siyasəti, intellektual mülkiyyətin qorunması, gömrük məsələləri, dövlət satınalmaları və başqaları). DCFTA ticarəti tənzimləyən qanunvericiliyin və qurumların Avropa İttifaqının müvafiq qaydaları və inzibati mexanizmləri ilə tədricən yaxınlaşmasını nəzərdə tutur.

DCFTA-nı qüvvəyə gətirməklə, 27 ölkəni və 446 milyon istehlakçını birləşdirən Gürcüstanda istehsal olunan mallar üçün dünyanın ən böyük bazarı açılıb. Avropa İttifaqı bazarı həm də sabit bazar, açıq oyun qaydaları, işlək şəbəkə, ərzaq qiymətlərinin artması, təbii məhsullara artan tələb deməkdir.

DCFTA aşağıdakı sahələri tənzimləyir:

malların ticarəti (tariflər);

malların mənşəyi qaydaları;

gömrük məsələləri və ticarətin asanlaşdırılması;

xidmət ticarəti;

sanitar və fitosanitar tədbirlər;

ticarətdə texniki maneələr;

intellektual mülkiyyət hüquqlarının qorunması.

Gürcüstan və Avropa İttifaqı arasında dərin və hərtərəfli azad ticarət məkanının yaradılması aşağıdakılara dəstək verir: Avropa İttifaqı bazarının tələblərinə uyğun ticarət sisteminin formalaşmasına; şəffaf, sabit biznes mühitinin yaradılması; Gürcüstanın investisiya cəlbediciliyinin və müvafiq olaraq xarici investisiyaların artırılması; ölkənin davamlı inkişafı və təbii ehtiyatlardan səmərəli istifadə; yeni müəssisələrin yaradılması və məhsulların ixracı; yerli istehsalın artımından sonra yeni iş yerlərinin yaradılması; gürcü məhsullarının ixrac bazarlarının şaxələndirilməsi və genişləndirilməsi ; gürcü ixracatçıları üçün ixracla bağlı xərclərin azaldılması; gürcü istehlakçılarını təhlükəsiz və zərərsiz məhsullarla təmin etmək; intellektual mülkiyyət hüquqlarının müdafiəsi; qabaqcıl Avropa təcrübələrinə uyğun olaraq dövlət idarəetmə orqanlarının inkişafı,

bütövlükdə iqtisadi artımın və ölkənin iqtisadi inkişafının stimullaşdırılması. Sanitar və fitosanitar tədbirlər və ticarətə texniki maneələr baxımından həyata keçirilən islahatlar nəticəsində Gürcüstanın kənd təsərrüfatı və sənaye məhsullarının Avropa İttifaqı bazarında sərbəst yerləşdirilməsi və eyni zamanda yerli bazarda zərərsiz və təhlükəsiz məhsulların tədarükü təmin edilib. Danışıqlar zamanı gürcü tərəfi Avropa İttifaqı ilə tariflərin liberallaşdırılması baxımından görünməmiş razılaşma əldə edib. Saziş qüvvəyə mindikdən sonra Gürcüstan mənşəli bütün məhsullar (kəmiyyət məhdudiyyətlərinə aid olan sarımsaq istisna olmaqla) Avropa İttifaqı bazarına gətirilərkən gömrük rüsumlarından azad edilib.

Malların sərbəst (tarifsiz və texniki məhdudiyyətsiz) ticarəti Gürcüstanda istehsal olunan məhsulların Avropa İttifaqı ölkələrinə ixrac potensialının artmasına və müvafiq olaraq Gürcüstanda iqtisadi artıma kömək edir. Buna əsaslanaraq, Avropa İttifaqı ilə Gürcüstan arasında ticarət əlaqələrinin dinamikası müsbətdir və Gürcüstandan Avropa İttifaqına ixrac hər il artır.